DÜNYA

Uitkoff və Kuşner Berlində Ukrayna, Avropa təmsilçiləri ilə görüşəcəklər

Noyabr 17, 2026



Cared Kuşner, Volodimir Zelenski və Stiv Uitkoff noyabrın 12-də Baldonneldəki Keyzment aerodromunda (Dublin) keçirilən görüşdən sonra mediaya açıqlama verirlər.

ABŞ prezidentinin xüsusi elçiləri **Stiv Uitkoff** və **Cared Kuşner** noyabrın 19-da Berlində Ukrayna və Avropa təmsilçiləri ilə görüşməyi planlaşdırırlar. Görüşdə Ukraynaya veriləcək təhlükəsizlik zəmanətləri və ölkənin müharibədən sonrakı bərpa planı müzakirə olunacaq. Bu barədə "Axios" nəşri ABŞ rəsmisinə istinadla məlumat yayıb.

Nəşrin müsahibinin sözlərinə görə, Donald Trampın xüsusi elçiləri Ukrayna və Avropa rəsmiləri ilə müntəzəm əlaqə saxlayır, eyni zamanda Rusiya ilə danışıqlar aparırlar.

Mənbə Berlin görüşünü və Trampın Çinə səfərini əlaqələndirilmiş diplomatik səylər kimi dəyərləndirib.

"Axios"un mənbəsi bildirib ki, Çində Trampa qoşulacaq dövlət katibi **Marko Rubio**, maliyyə naziri **Skot Bessent** və Ağ Evin aparat rəhbəri **Stiven Miller**ə Ukrayna ilə bağlı danışıqlar barədə məlumat verilib.

Uitkoff və Kuşner noyabrın 12-də Əbu-Dabidə keçirilən üçtərəfli danışıqlardan sonra Kremldə Rusiya prezidenti Vladimir Putinlə görüşüblər. Bu görüşdən sonra Kuşner deyib ki, Ukrayna və ABŞ Avropa nümayəndələrinin danışıqlarda iştirakını dəstəkləyir.

Noyabrın 16-da Trampın xüsusi elçisi Rusiya prezidentinin köməkçisi **Yuri Uşakov**la danışıb. Onun sözlərinə görə, tərəflər danışıqlarda əldə olunan irəliləyişi, növbəti addımları, eləcə də Brüssellə Moskva arasında birbaşa təmasların qurulmasına yardım yollarını müzakirə ediblər.

Uşakov vurğulayıb ki, **Avropa təmsilçilərinin Ukrayna ilə bağlı danışıqlara qoşulması üçün "üçtərəfli danışıqların daha bir, ola bilsin ki, bir neçə raundu" keçirilməlidir.**

Məlumata görə, Ukraynadakı müharibənin nizamlanması ilə bağlı gələcək texniki səviyyəli danışıqlarda Avropanı Avropa İttifaqı, Almaniya, Fransa, Böyük Britaniya, İtaliya və Polşanın milli təhlükəsizlik üzrə müşavirləri təmsil edəcəklər. Avropa ölkələri hələlik öz siyasi nümayəndələrini müəyyənləşdirməyiblər.

"Bloomberg" agentliyi danışıqların növbəti raundunun dekabrın 14–15-də ABŞ-də keçiriləcək G20 sammitindən əvvəl baş tutacağının gözlənildiyini yazır. Amma buna qədər daha bir neçə görüşün keçiriləcəyi bildirilir.

Buna da bax:

Krım körpüsü qismən çöküb

ABŞ, Çin və Rusiya liderləri noyabrın 19-da görüşəcək

Rusiya dizeli ABŞ-yə çatmadı, amma Moskva 'yeni alıcılar tapır'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur